5. Cəfərov, S. (2007). Müasir Azərbaycan dili: Leksika. − Bakı: "Şərq-Qərb". − 192 s.

6. Xəlilov, B. (2007). Müasir Azərbaycan dilinin morfologiyası. 2 cilddə, I c. − Bakı: "Elm". −280 s.

7. Sabir, M.Ə. (2004). Hophopnamə. 2 cilddə, I c. − Bakı: "Şərq-Qərb". − 480 s.

8. Azərbaycan aşıq poeziyasından seçmələr. (2005). 2 cilddə, I cild. −Bakı: "Şərq-Qərb". − 376 s.

9. Xətai, Ş.İ. (2005). Əsərləri. − Bakı: "Şərq–Qərb". − 384 s.

10. Билалова, Д.Н. (2016). Морфемная структура слов в башкирском и английском языках // Автореферат диссертации на соискание учёной степени кандидата филологических наук. − Чебоксары, − 24 с.

11. Тараканова, И.М. (2005). Образование имён существительных в хакасском языке (сопоставительный аспект) // Автореферат диссертации на соискание учёной степени кандидата филологических наук. − Новосибирск, −24 с.

12. Şəriət, təriqət, mərifət, həqiqət mərhələləri. (2016). − Bakı, ISBN: 978-9952 085-1. − 600 s.

**Məqalə tarixçəsi**
*Daxil olub* *24.02.2026*
*Düzəlişə göndərilib* *06.03.2026*
*Qəbul edilib* *27.03.2026*
*Nəşrə tövsiyə edib* *Ülviyyə Hacıyeva*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*https://doi.org/10.30546/114578.2026.3015.251*

# DİLİN MƏNİMSƏNİLMƏSİNİN LİNQVOPSİXOLOJİ PROBLEMLƏRİ: SOSİOLOJİ ASPEKT

**Nəzrin Mustafayeva**
*doktorant*
*Bakı Dövlət Universiteti*
*https://ORCID.org/0009-0002-6797-200X*
*nezrinmustafayeva9@gmail.com*

**Xülasə**

Dilin mənimsənilməsi ümumiyyətlə linqvopsixoloji xarakterə malik olsa da, onun iki aspekti xüsusilə fərqlənir ki, onlardan biri bioloji, digəri isə sosiolojidir. Bir sıra tədqiqatlarda, ilk növbədə, N.Xomskinin törədici qrammatikasında dilin anadangəlmə bir qabiliyyət olması ideyasına dayanılaraq bioloji (neyrofizioloji) aspekt ön plana çəkilmiş olsa da, sosiolinqvistikanın elmi istiqamət kimi təşəkkülü ilə bağlı sosioloji aspekt də ortaya çıxmaqdadır.

Sosiolinqvistlər N.Xomski və onun tərəfdarlarının dilə, eləcə də dilin mənimsənilməsinə mentalist baxışlarına qarşı özlərinin etnoqrafik, sosioloji təcrübəyə əsaslanan mülahizələrini irəli sürürlər. Onların fikrincə, törədici dilçilik nümayəndələri təbii, canlı yox, ideal, sxematik dili araşdırdıqlarına görə, istifadə etdikləri bəzi aparıcı anlayışlar da (məsələn, "dil qaydaları" anlayışı) həqiqəti ifadə eləmir.

**Açar sözlər:** dilçilik, sosioloji aspekt, dil mənimsənilməsi, sosiolinqvistika, N.Xomski.

# LINGUOPSYCHOLOGICAL PROBLEMS OF LANGUAGE ACQUISITION: THE SOCIOLOGICAL ASPECT

**Nezrin Mustafayeva**
*Baku State University*

**Abstract**

Language acquisition is generally characterized as a linguopsychological phenomenon; however, two major aspects can be distinguished within this process: biological and sociological. In a number of studies, particularly in the theory of generative grammar proposed by N.Chomsky, the idea of language as an innate faculty has brought the biological (neurophysiological) aspect to the forefront. Nevertheless, with the establishment of sociolinguistics as an

independent scientific discipline, the sociological aspect of language acquisition has also gained significant scholarly attention.

Sociolinguists advance ethnographically and sociologically grounded arguments against the mentalist approach to language and language acquisition developed within generative linguistics. In their view, generative linguistics examines not natural, living language in its social functioning, but rather an idealized and schematic model of language. Consequently, several key notions employed within this framework (such as the concept of "language rules") do not fully reflect linguistic reality as it exists in social interaction.

**Key words:** linguistics; language acquisition; sociological aspect; sociolinguistics; generative grammar.

## ЛИНГВОПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ОСВОЕНИЯ ЯЗЫКА: СОЦИОЛОГИЧЕСКИЙ АСПЕКТ

**Назрин Мустафаева**
*Бакинский государственный университет*

**Резюме**

Освоение языка в целом носит лингвопсихологический характер, однако в данном процессе чётко выделяются два основных аспекта: биологический и социологический. В ряде исследований, прежде всего в теории порождающей грамматики Н.Хомского, на первый план выдвигается идея врождённой языковой способности, что акцентирует биологический (нейрофизиологический) аспект проблемы. Вместе с тем, с формированием социолингвистики как самостоятельного научного направления всё более значимым становится и социологический аспект освоения языка.

Социолингвисты выдвигают аргументы, основанные на этнографических и социологических исследованиях, против менталистского подхода к языку и его освоению. По их мнению, представители порождающей лингвистики анализируют не естественный, функционирующий в обществе язык, а его идеализированную и схематизированную модель. Вследствие этого некоторые ключевые понятия (например, «языковые правила») не в полной мере отражают реальную языковую практику.

**Ключевые слова:** лингвистика, освоение языка, социологический аспект, социолингвистика. порождающая грамматика

**Giriş/Introduction**

Dilin mənimsənilməsində linqvopsixoloji aspekt, əslində isə linqvistik və psixoloji aspektlər əsas olsa da, ayrı-ayrılıqda bioloji və sosioloji aspektlər də əhəmiyyətli rola malikdir. Bunlardan birincisi dilin mənimsənilməsində bədənin, ilk növbədə, nitq orqanlarının funksiyalarını aydınlaşdırırsa, ikincisi təbiəti etibarilə ictimai olan bir hadisənin – dilin hər bir fərddə məhz insanlararası ünsiyyət vasitəsi kimi təzahürü mexanizmlərini aşkarlamağa cəhd göstərir.

Dilin ictimai hadisə olub yalnız insan cəmiyyətini səciyyələndirməsi barədəki təsəvvür çox qədim zamanlardan heç bir şübhə doğurmasa da, məsələnin elmi dərki və izahı çox sonrakı dövrlərə aiddir. Dil filosofu V. Fon Humboldt XIX əsrin əvvəllərində demişdi ki, "*dilin orqanizmi insana məxsus danışmaq qabiliyyət və tələbatından nəşət edir. Və onun formalaşmasında bütün xalq iştirak eləyir. Hər bir xalqın mədəniyyəti onun xüsusi qabiliyyəti və taleyindən asılıdır ki, əsası daha çox xalqda hər dəfə yenidən təzahür edən ayrı-ayrı şəxsiyyətlərin fəaliyyətindən ibarətdir*" [Humboldt, 2019:32].

Doğrudan da, zahirən bir fərdin səlahiyyətində olduğu görünən dil ona görə öz funksiyasını uğurla yerinə yetirir ki, bütövlükdə cəmiyyətin ünsiyyətində ehtiva olunur. Xüsusilə o baxımdan ki, yenicə dil açmağa başlayan körpə hər nə qədər fitri, yaxud anadangəlmə dil qabiliyyətinə malik olsa da, bu qabiliyyəti özündən asılı olmayaraq düşdüyü ictimai mühit reallaşdırır.

F.de Sössür "*nitq fəaliyyətinə təbii-elmi xarakter verilməsi*", yəni dilin beyində özünəməxsus lokallaşma yeri olduğu ilə razılaşsa da, dil haqqındakı elmin məhz sosioloji istiqamətdə inkişafını təmin etmişdir. Onun fikrinə görə, "*nitq ayrı-ayrı fərdlərə mənsubdursa, dil həmin fərdlərin hamısına mənsubdur; nitqdə kollektivlik yoxdursa, dil bütünlüklə kollektivin malıdır. Deməli, bu və ya digər dili bilmək üçün həmin dildə danışmaq zəruri deyildir. Dil öyrənilən, tədqiq edilən bir hadisədir, o, müəyyən bir elmin tədqiqat obyektidir*" [Axundov, 2006:53].

Məlumdur ki, F. de Sössürün sosiologizmini çox zərif bir psixologizm müşayiət etməkdədir. Həmin müşayiət o həddə çatır ki, dahi dilçi deyir: "*Nəticə etibarilə, cəmiyyət həyatı çərçivəsində işarələrin həyatını öyrənən bir elm təsəvvür etmək olar; bu elm sosial psixologiyanın, bunun ardınca isə ümumi psixologiyanın tərkib hissəsi olardı, biz onu semiologiya adlandırardıq*" [Sössür, 2018:29].

Fikrimizcə, dilin mənimsənilməsi məsələsinə dil işarəsi anlayışından kənarda ona görə baxmaq olmaz ki, dilin yeganə elmi izahıbütünlüklə ictimai

(kollektiv) məzmuna malik olan məhz bu anlayışla bağlıdır. Dil açmağa başlayan körpə əvvəlcə cəmiyyətin ona doğma olan son dərəcə məhdud bir mühitinin semiotik dərslərini almağa başlayır ki, bu dərslər səslə (fonasiya) ilə mənanın qarşılıqlı əlaqəsindən ibarətdir.

Dil açan körpə işarələnən (əşya, hadisə) ilə işarələyən (söz) arasındakı əlaqəni mənimsədikcə, yəni həmin əlaqəni yadda saxladıqca "dilin ruhu"na daxil olmağa, yaxud "dil sistemi"ni anlamağa başlayır. Bu elə bir fundamental ictimai prosesdir ki, təfəkkürün hərəkətə gəlməsi, eləcə də şüurun formalaşması ilə müşayiət olunur. Həmin prosesdə körpənin dil açması – nitqə yiyələnməsi "xüsusi istedadla" baş verir.

Elmin inkişafının antroposentrik paradiqmasında dilçiliyi təmsil edən ən görkəmli şəxsiyyətlərdən biri kimi N.Xomski "Dil və təfəkkür" əsərində dilin mənimsənilməsinin linqvososioloji aspektinə, demək olar ki, toxunmur. Burada onu maraqlandıran strateji məsələ əsası karteziyan dövründə qoyulmuş ideyalardır ki, onlar dillə təfəkkürün əlaqələri kontekstində bütün universal miqyası ilə nəzərdən keçirilir. "*İnsan dilinin mahiyyətini daha dərindən öyrəndikcə müvafiq olaraq insan təfəkkürünün prosesləri haqqında daha çox bilik əldə etməyə*" [Xomski, 2006:15] istiqamətlənmiş N.Xomski araşdırmalarında, əgər belə demək mümkünsə, insan (cəmiyyət) təfəkkürün arxasında "gizlənir". Bunun əsas səbəbi, fikrimizcə, görkəmli tədqiqatçının daha çox universal dilçilik prinsiplərindən çıxış etməsi, ümumiyyətlə insan dili barədə danışmasıdır.

Bununla belə "Dil və təfəkkür" müəllifinin dilin alt və üst astrukturlarını müqayisə edərkən məhz linqvososioloji baxımdan izah oluna biləcək məqam ortaya çıxır. Müəllif göstərir ki, "*üst struktur tez-tez düzgün istiqamətləndirmir və qeyri-informativdir. Bizim dil bilgimizin üst strukturunda birbaşa göstərilməsi çox-çox abstrakt təbiətli xüsusiyyətləri ehtiva edir*" [Xomski, 2006:64].

Körpənin dili mənimsəməyə başladığı ilk günlərdən onun, əgər belə demək mümkünsə, sosiallaşmasının əsası qoyulur. Müşahidələr göstərir ki, iki yaşına çatmış uşaqlar artıq "bu nədir?" sualını verməyə başlayırlar. Onların bildikləri sözlərin nitq hissələrinə görə tərkibinə diqqət yetirmək də maraqlıdır: isimlər – 63%, feillər – 23%, digər nitq hissələri – 14% [Belyanin, 2020:49]. Bu isə o deməkdir ki, uşaq təfəkkürü ilk növbədə, əşyaları, obyektləri fərqləndirir, bir az da irəli gedib deyə bilərik ki, ətraf aləm onun üçün daha çox statik hadisədir, bir növ, mənzərə kimidir. Lakin feillərin də o qədər az olmaması deməyə imkan verir ki, həmin statik mənzərədə hərəkətin mövqeyi dinamika öz perspektivlərini

göstərməkdədir. Digər nitq hissələrinin – sifət, say, zərflər və s. azlığı ondan irəli gəlir ki, həmin sözlər isim və feillərdən daha analitik düşüncə qabiliyyəti tələb edir. Odur ki, bu göstəriciləri uşağın yaşına bağlayaraq sadəcə bioloji amil kimi qiymətləndirmək olmaz, onlar eyni zamanda sosioloji amillə şərtlənir. Əslində, burada aydın görünən bir dialektika mövcuddur: mərkəzdə insanın anadangəlmə dil qabiliyyəti dayanır ki, bu, psixolinqvistik hadisədir, onunla sıx qarşılıqlı əlaqədə olub gerçəkləşməsini təmin edən daha iki zəruri tərəf – aspekt var ki, biri bioloji, digəri sosiolojidir. Həmin münasibəti sxematik olaraq aşağıdakı şəkildə ifadə etmək mümkündür:




Dilin mənimsənilməsi prosesinin yuxarıdakı sxemində bioloji olanla sosioloji olanın münasibəti özünün bilavasitə əksini tapmamışdır. Bu sxemi təqdim etməkdə məqsədimiz sözügedən prosesdə bioloji və sosioloji aspektlərin paralel iştirakını göstərmək idi. Ancaq müşahidələr deməyə əsas verir ki, həmin aspektlərin özləri arasında da birbaşa əlaqə vardır. belə ki, dilin mənimsənilməsinin ilk illərində bioloji aspekt aparıcıdır, körpələr, tamamilə aydındır ki, hələ cəmiyyətdən daha çox təbiətin övladlarıdır. Onların təbiətdən cəmiyyətə "transfer"i hər nə qədər qısa zamanda – bir neçə ildə baş versə də bu qısa zaman son dərəcə çoxspektrli olub cəmiyyətin formalaşmasının min illərlə sürən prosesinin "icmal"ı kimi çıxış edir.

Psixolinqvist Elizabet Beyts məşhur "İntensiyalar, konvensiyalar və simvollar" məqaləsində yazır:

"*Olduqca uzun zaman ərzində biz 9 aylıqdan 13 aylığa qədər körpələri müşahidə etdik... İnsan Ontogenezini öyrənməkdə davam edərkən biz daha çox əmin oluruq ki, o, simvolların yardımı ilə insan fəaliyyətinin mənşəyində dayanan bir çox, iki həlledici məqamı əks etdirir: a) kommunikativ intensiyaların və konvensional siqnalların meydana gəlməsi; b) simvolların təzahürü və belə bir faktın ortaya çıxması ki, əşyaların adları mövcuddur*" [Cəfərov, 2023:153].

Dili mənimsəmə prosesinin "biologiya"dan – təbiətdən "sosiologiya"ya – cəmiyyətə keçməsi hər nə qədər qısa zamanda baş versə də tədrici, mərhələli səciyyə daşıyır. Bizim müşahidələrimizə görə, körpə, ilk növbədə, əşyaları, mənimsəyir ki, həmin bu əşya anlayışına istər cansız, istərsə canlı, eləcə də istər hərəkətdə olan, istərsə də olmayan predmetlər daxildir və körpənin inkişaf etməmiş təsəvvüründə hərəkət və əlamətlər əşyadan ayrılmazdır. Burada iki məqamı da qeyd etmək lazım gəlir ki, onlardan birincisi uşağın əşya ilə onun daxil olduğu əşyalar dəsti və ya qrupu arasında ciddi fərq qoymaqda çətinlik çəkməsi, başqa sözlə, "burada" və "indi" hüdudundan kənara çıxa bilməməsidirsə; ikincisi – diqqət yayğınlığı, əşyadan əşyaya heç bir təəssürat qoymadan keçməsidir. Statika ilə dinamikanın körpə təfəkküründə bir-birini tamamlaması üçün müəyyən vaxt lazım gəlir ki, görünür, bu, yaddaşın təzahürü ilə də şərtlənir.

İkinci mərhələ hərəkətin əşyadan ayrılması, daha doğrusu, bu kateqoriyaların fərqləndirilməsidir. Burada diqqəti çəkən odur ki, canlı varlıqlarla cansız varlıqlar arasındakı fərq dərk olunmur və hərəkət bu varlıqların hər ikisinə fərqsiz aid edilir.

Həm birinci, həm də ikinci mərhələdə dilin mənimsənilməsi bioloji kontekstdə gedir. Doğrudur, həmin proses sosioloji amillərin təsirindən tamamilə kənarda baş vermir. Belə ki, uşağı birbaşa əhatə edən ailə mühiti mövcuddur və fiziki dünya ilə onun təmasları hələ o qədər də intensiv olmasa da, bu mühitdən ayrı təsəvvür oluna bilməz. Lakin körpə hələ ki, öz bədəninin biofizioloji tələblərinin sərəncamındadır.

Üçüncü mərhələ artıq sosioloji aspektin bioloji üzərində üstünlüyünü təmin etməyə başlayır. Burada aparıcı cəhət səslə məna arasındakı əlaqənin dərkidir ki, onunla uşaq artıq təbiətdən ayrılıb cəmiyyətə qoşulmanın, əgər belə demək mümkünsə, izinə düşür. Söz ehtiyatının artması ilə uşaq təhtəlşüur şəkildə işarələnənlə işarələyən arasındakı sosialpsixoloji münasibətin qaydalarına öz təcrübəsində riayət etməklə cəmiyyətin ayrılmaz bir üzvü olduğunu təsdiq edir.

N.Xomskinin dilin sosial mahiyyətini öz tədqiqatlarında nəzərə almaması, yaxud az nəzərə alması, əlbəttə, onun geniş yayılmış, hətta dil haqqındakı elmdə inqilab kimi qarşılanmış nəzəriyyəsinə bu və ya digər dərəcədə xələl gətirməyə bilməzdi. Ona görə də J.Qəribovanın aşağıdakı mülahizələri sosiolinqvistik mövqedən kifayət qədər əsaslı səslənir: